# İnformasiya-psixoloji təhlükəsizliyin təmin edilməsi problemləri

Yadigar İmamverdiyev

*AMEA İnformasiya Texnologiyaları İnstitutu*

yadigar@lan.ab.az

***Xülasə*— Qlobal informasiya cəmiyyəti yaratdığı böyük imkanlarla yanaşı bir sıra neqativ nəticələr də doğurur: dövlətlərarası ziddiyyətlər və münaqişələr qlobal informasiya fəzasına keçir, informasiya müharibəsi imkanları artır, mədəni və ideoloji ekspansiya genişlənir, informasiya müstəmləkəçiliyi meydana çıxır. Dövlətlər qarşısında öz informasiya fəzasının suverenliyini təmin etmək, zərərli informasiyanın fərdi, qrup və kütləvi süura neqativ təsirlərini effektiv neytrallaşdırmaq problemi durur. Bu işdə informasiya-psixoloji təhlükəsizlik anlayışı dəqiqləşdirilir, informasiya-psixoloji təsir mexanizmləri və informasiya-psixoloji təhlükəsizlik təhdidləri analiz edilir, e-dövlət mühitində informasiya-psixoloji təhlükəsizliyin təmin edilməsinin əsas problemləri göstərilir.**

***Açar sözlər*— informasiya cəmiyyəti; informasiya-psixoloji təhlükəsizlik; informasiya əməliyyatı; ictimai şüur; fərdi şüur.***

## I. GİRİŞ

İnformasiya cəmiyyətində informasiya fərdi və ictimai süura aktiv təsir vasitəsinə çevrilir və informasiyanın təsiri həmişə müsbət olmur. Müxtəlif sosail və siyasi güclər informasiyadan öz məqsədlərinin həyata keçirilməsi üçün vasitə kimi istifadə edirlər və cəmiyyət üçün təhlükəli informasiya təsiri metodlarına getdikcə daha çox əl atırlar [1].

İnformasiya təsirinin subyektlərinə – vətəndaşlara və cəmiyyətə qarşı yönəlmiş icazəsiz informasiya əməliyyatları (müdaxilələri) dezinformasiya, təhdid, psixoloji təzyiq, manipulyasiya, zərərli informasiyanın şüurlara yeridilməsi, ictimai və fərdi şüurun psixoloji viruslarla yoluxdurulması üçün istifadə edilir. Bu zərərli müdaxilələr insanın fərdi şüuruna, cəmiyyətin kollektiv psixologiyasına bilavasitə təsir edir və cəmiyyətdə davranış proseslərini dəyişdirə bilər. İnsanların fərdi, qrup və kütləvi şüurunu hədəf alan zərərli informasiya təsirləri bir çox halda vətəndaşların psixi və mənəvi sağlamlığına ziyan vurur, cəmiyyətdə psixi gərginliyi artırır, cəmiyyət həyatının mənəvi və əxlaqi normalarını məhv edir, sosial-siyasi vəziyyətin destabilizasiyasına gətirib çıxarır.

Beləliklə, informasiya cəmiyyəti şəraitində informasiya-psixoloji təhlükəsizliyin təmin edilməsi bir çox cəhətdən təkcə ölkənin informasiya təhlükəsizliyinə deyil, bütövlükdə milli təhlükəsizliyə təsir edir. Lakin bu məsələnin həllini çətinləşdirən bir sıra faktorlar movcuddur. Onları qısaca olaraq aşağıdakı kimi xarakterizə etmək olar [1, 2].

Müasir dünyada baş verən iqtisadi, siyasi, informasiya və mədəni-ideoloji qloballaşma şəraitində inkişaf etmiş informasiya infrastrukturuna malik ölkələrin mədəni və ideoloji ekspansiyası genişlənir, informasiya müstəmləkəçiliyi, informasiya imperializmi meydana çıxır.

Qlobal informasiya cəmiyyətində kütləvi kommunikasiya vasitələrinin inhisara alınması prosesləri genişlənir. İnformasiya vasitələri qlobal iqtisadi və siyasi qruplaşmaların əlində təsirli vasitəyə çevrilir və onlar söz azadlığını öz maraqları baxımından istismar edirlər. Transmilli informasiya agentlikləri ictimai rəyin beynəlxalq siyasi, maliyyə və sənaye qruplaşmalarının məqsədlərindən asılı olması şəraitini yaradır.

Dövlətlərarası ziddiyyətlər və münaqişələr qlobal informasiya fəzasına keçirilir və bu münaqişələrin informasiya qarşıdurması və onun ən kəskin forması – informasiya-psixoloji müharibə vasitəsilə həlli imkanları artır.

Beynəlxalq terrorizm qlobal kommunikasiyaların imkanlarından istifadə etməklə insanların süur və davranışı ilə manupulyasiyanın vacib elementi kimi informasiya-psixoloji təsirdən fəal istifadə edir.

Dövlətin qlobal informasiya fəzasına inteqrasiya olunmuş milli informasiya fəzasına nəzarət imkanları zəifləyir, bu fəzaya bədniyyətli qüvvələr tərəfindən kənar müdaxilə imkanları olduqca artır və milli informasiya fəzasının suverenliyini təmin etmək müasir milli dövlətlər qarşısında duran çətin məsələyə çevrilir.

Dövlət informasiya siyasətinin ən vacib məsələlərindən biri milli informasiya fəzasında müxtəlif bədniyyətli aktorlar tərəfindən həyata keçirilən informasiya-psixoloji təsir əməliyyatlarının qarşısını təsirli şəkildə almaqdır. Bu vəzifənin yerinə yetirilməsi qlobal informasiya cəmiyyəti şəraitində informasiya-psixoloji təhlükəsizliyin təmin edilməsi üçün effektiv dövlət sisteminin yaradılmasını nəzərdə tutur. Belə sistemin yaradılması isə müvafiq elmi-metodoloji bazanın işlənib hazırlanmasını tələb edir.

İnformasiya-psixoloji təhlükəsizliyin təmin edilməsi problemləri multi-disiplinar elmi-tədqiqatlıarın yeni və çox mürəkkəb sahəsidir. İnformasiya-psixoloji təhlükəsizlik problemləri sosial psixologiya, sosial mühəndislik, hüquq və informasiya texnologiyalarının qarşılıqlı təsir sahəsindədir. AMEA İnformasiya Texnologiyaları İnstitutunda informasiya-psixoloji təhlükəsizlik problemləri istiqamətində İnternet asılılıq, informasiya müharibələri, uşaqların və gənclərin İnternetdə təhlükəsizliyi, informasiya mədəniyyəti, media analitika sahəsində bir sıra tədqiqat işləri aparılmaqdadır [1-4]. Bu işdə informasiya-psixoloji təhlükəsizlik anlayışı dəqiqləşdirilir, informasiya-psixoloji təsir mexanizmləri və informasiya-psixoloji təhlükəsizlik təhdidləri analiz edilir, informasiya cəmiyyəti şəraitində informasiya-psixoloji təhlükəsizliyin təmin edilməsinin əsas problemləri göstərilir.

## II. İNFORMASİYA-PSİXOLOJİ TƏHLÜKƏSİZLİK ANLAYIŞI

"İnformasiya-psixoloji təhlükəsizlik" anlayışının mahiyyətini mümkün olduqca tam açmaq üçün "informasiya", "təhlükəsizlik", "psixoloji təhlükəsizlik", informasiya təhlükəsizliyi" anlayışlarının mahiyyətinə və onların qarşılıqlı əlaqələrinə baxmaq vacibdir.

Təhlükəsizlik tələbatı insanın əsas tələbatları iyerarxiyasında (Maslou) mühüm yer tutur – iyerarxiyanın özülündə durur [5]. Təhlükəsizlik şəxsiyyətin normal inkişafını təmin edən hadisədir. Onu qismən də olsa ödəmədən, şəxsiyyətin harmonik inkişafı, özünü reallaşdırması mümkün deyil.

Şəxsiyyətin psixoloji təhlükəsizliyi sosial təhlükəsizliyin tərkib elementidir. Sosial təhlükəsizlik sosial institutlar tərəfindən ölkə əhalisinin tələbatlarının, maraqlarının, məqsədlərinin qarşılanmasına yönəlmiş funksiyalarının effektiv həyata keçirildiyini bildirir.

Şəxsiyyətin təhlükəsizliyini pozan təsirlərin təbiəti müxtəlif ola bilər, lakin informasiya təsiri universal olması baxımından insan şüuruna insan təhlükəsizliyinin bütün növləri üçün təhdid ola bilər. İnformasiya təsirinin aparıcı rolunu nəzərə alaraq "informasiya-psixoloji təhlükəsizlik" anlayışını daha məqbul hesab edirlər [6,7].

Bəzi tədqiqatçılar "informasiya-psixoloji təhlükəsizlik" anlayışının açılmasında psixoloji təhlükəsizliyi deyil, informasiya təhlükəsizliyini əsas götürürlər. Lakin nəzərə almaq lazımdır ki, informasiya-psixoloji təhlükəsizlik informasiyanı konfidensiallıq, tamlıq və əlyetənlik baxımından deyil, insanların şüuruna təsiri baxımından nəzərdən keçirir. Psixoloji təhlükəsizliyə münasibətdə təhlükəsizlik anlayışı təhdidin olmaması ilə deyil, insanın psixoloji vəziyyəti, hissləri və həyəcanları ilə əlaqələndirilir.

Ədəbiyyatda "informasiya-psixoloji təhlükəsizlik" anlayışına müxtəlif yanaşmalar mövcuddur [6-10]. Əksər yanaşmalarda şəxsiyyətin və cəmiyyətin informasiya-psixoloji təhlükəsizliyinə informasiya sisteminin cəmiyyətin və vətəndaşların indiki və gələcək zaman münasibətlərini əks etdirən ictimai və fərdi şüura təsiri mövqeyindən baxılır.

Q.V.Qraçov şəxsiyyətin informasiya-psixoloji təhlükəsizliyinə insanın sosial davranışının adekvat informasiya-oriyentasiya əsaslarının formalaşması və onun fəaliyyətini və bütövlükdə müasir cəmiyyətdə həyat fəaliyyətinin, eləcə də onun ətraf mühitə və özünə subyektiv münasibətlərinin (şəxsi, subyektiv-şəxsi) adekvat sistemini çətinləşdirən və ya qarşısını alan müxtəlif informasiya faktorlarından psixikanın mühafizə olunduğu vəziyyət kimi baxır [6].

Şəxsiyyətin informasiya-psixoloji təhlükəsizliyi (dar mənada) – insan psixikasının insan şüuruna və (və ya) altşüuruna yeridilmə yolu ilə həyata keçirilən və onun reallığı qeyri-adekvat qavramasına gətirib çıxaran müxtəlif növ neqativ informasiya təsirlərindən qorunduğu vəziyyətdir [7].

Şəxsiyyətin informasiya-psixoloji təhlükəsizliyi (geniş mənada) aşağıdakı kimi müəyyən edilə bilər [6,7]:

- şəxsiyyətin nəzəri və praktiki hazırlığının informasiya təhdidlərinin mövcudluğundan asılı olmadan onun həyati vacib maraqlarının qorunmasını və reallaşmasını və harmonik inkişafını təmin edən lazımi səviyyəsi;
- dövlətin informasiya təhdidlərinin mövcudluğundan asılı olmadan şəxsiyyətin harmonik inkişafı və onun informasiya tələbatının ödənilməsi üçün şərait yaratmaq imkanı;
- informasiya mühitinin şəxsiyyətin maraqlarında təmin edilməsi, inkişafı və istifadəsi;
- müxtəlif növ informasiya təhlükələrindən qorunması.

## III. İNFORMASİYA-PSİXOLOJİ TƏHLÜKƏSİZLİYİN OBYEKTLƏRİ

Müasir şəraitdə informasiya-psixoloji təhlükəsizliyin ən vacib obyektləri fərdi və kütləvi şüurdur.

Fərdi şüur sahəsində informasiya-psixoloji təhlükəsizliyinin təmin edilməsinin əsas obyekti insanın ətraf mühiti, xarici aləmdə öz yerini adekvat dərk etmək, öz həyat təcrübəsinə uyğun olaraq müəyyən inancları formalaşdırmaq və onlara uyğun olaraq qərarlar qəbul etmək qabiliyyətidir [7].

Kütləvi (ictimai) şüur hər şeydən əvvəl millətin, xalqın, böyük sosial qrupun tarixi inkişafı prosesində formalaşır. Lakin informasiya-psixoloji təsir kütləvi şüuru və böyük sosial qrupun davranışını əhəmiyyətli dərəcədə dəyişə bilər [11].

Böyük sosial qrup – dayanıqlı dəyərləri, davranış normaları və sosial-tənzimləyici mexanizmləri olan (partiyalar, etnik qruplar, istehsal və ictimai təşkilatlar) sosial icmadır, onun sayına məhdudiyyət qoyulmur. Böyük sosial qrupların həyat fəaliyyətinin sosial-psixoloji tənzimləyiciləri qrup şüuru, mentalitet, dəyərlər, ənənələr və s.-dir.

Kütləvi şüur sahəsində informasiya-psixoloji təhlükəsizliyinin təmin edilməsinin əsas obyektləri kütləvi şüurun konservativ və dinamik komponentləridir [11].

Kütləvi şüurun konservativ komponenti böyük insan kütlələrinin ümumi maraqlarını, mədəni, mənəvi və əxlaqi dəyərlərini, qəbul edilmiş davranış və həyat tərzini və bu kütlələrin həmin maraqlara, dəyərlərə və əxlaqa mövcud olan təhdidlərə əks-təsir etmək hazırlığını əhatə edir. Kütləvi şüurun konservativ komponentinə təhdidlər yad maraqların, dəyərlərin və əxlaqın zorla aşılanması şəklində həyata keçirilir. Bu təhdidlərin nəticələri mənəvi sağlamlığın, yaranmış sosial münasibətlərin dağılması və onun bir vahid kimi məhv edilməsi ola bilər.

Kütləvi şüurun dinamik komponenti sosial vacib hadisələr barəsində konservativ komponentə əks olunmuş məlumatlar ilə formalaşır və bu hadisələrin insanlarda müvafiq emosional qiymətləndirilməsini yaradır. Dinamik komponentə təhdidlər hər şeydən əvvəl baş verən hadisələrin tələb olunan emosional qiymətləndirməsini formalaşdırmaq məqsədi ilə baxılan informasiyanın təhrif və ya manipulyasiya edilməsindən ibarətdir. Bu təhdidlərin nəticəsi hadisələrin baxılan kütlənin şüurunun konservativ komponentinə adekvat qavrayışının pozulmasıdır. Bu baxılan kütlələrdə formalaşmış davranış stereotiplərindən asılı olaraq özünü ətraf aləmə sosial apatiyada və ya aqressivlikdə göstərə bilər.

Bir sıra mənbələrdə zərərli informasiyanın disfunksional təsirinin obyektlər sferasını genişləndirməyin vacibliyi, bura

mənəvi-psixoloji sağlamlığın və şəxsiyyətin inkişafının göstəricilərini də əlavə etməyin zəruriliyi qeyd olunur. İnformasiya-psixoloji təhlükəsizlik obyektləri həm də şəxsiyyətin və cəmiyyətin həyat fəaliyyətinin bütün sferalarının inkişafını təmin edən şərtlər və faktorlardır, o cümlədən elm, incəsənət, dini və millətlərarası münasibətlərdir. İnformasiya-psixoloji təhlükəsizlik obyeklərinə dil mühiti, sosial, ideoloji, siyasi oriyentirlər, ictimai və sosial əlaqələr, ölkədə yaşayan xalqların genofondu və s. də aid edilir [7].

## IV. İNFORMASİYA-PSİXOLOJİ TƏHLÜKƏSİZLİYƏ YÖNƏLİK TƏHDİDLƏR

Cəmiyyətin bütün həyat sahələrində informasiya və kommunikasiya texnologiyalarından geniş istifadəsi bir sıra ciddi sosial-psixoloji nəticələr doğurur.

İnternetlə, sosial şəbəkələrlə həddindən çox məşğul olmaq daim qlobal şəbəkədə olmaq istəyinə – İnternet asılılığa gətirib çıxara bilər, bu insanın həyatına mənfi təsir göstərir, real həyatı virtual həyat əvəz edir [3].

Onlayn-oyunlarda fəal iştirak virtual dünyadan və oyunlardan asılılığa, psixi pozuntulara və nəticədə depressiya və fiziki tükənməyə, hətta cinayət törətməyə gətirib çıxarır.

*Kiberxondriya xəstəliyi* İnternetdə xəstəliklər haqqında bol olan məlumatları oxumaq nəticəsində yaranır. Soyuqdəyməyə qarşı İnternetdə müalicə axtaran sağlam insan özündə bir neçə ciddi xəstəlik aşkarlaya bilər. Özünü xəstələndiyinə inandıraraq, insan həqiqətən də xəstələnə bilər.

"Google effekti" informasiya axtarışı vasitələrinin tez-tez istifadəsinin informasiyanın yadda saxlanması proseslərinə təsirini ifadə edir. İnsan lazım olduqda informasiyanı harada tapa biləcəyini bilirsə, informasiyanı yadda saxlaması çətinləşir. İnsan informasiyanın özünü deyil, onu harada axtaracağını yadda yaxlayır (yaddasaxlamanın bu növü *tranzaktiv yaddaş* adlanır).

İnformasiya cəmiyyətində şəxsiyyət real həyat problemlərindən virtual dünyaya üz tutmağa meylli olur. Buna görə, informasiya sistemləri tərəfindən cəmiyyətdəki davranış proseslərinə ən güclü təsir *virtual reallığın yaradılması*dır. Məqsədyönlü informasiyanın uzunmüddətli təsiri yolu ilə cəmiyyətdə reallıqdan əhəmiyyətli dərəcədə fərqlənən dayanıqlı təsəvvürlər yaratmaq mümkündür.

Rəqəmsal mühitdə "qara piar", dələduzluq və dezinformasiyanın müasir incə üsulları istifadə edilir [12].

Fərdi, qrup və kütləvi şüura və bütövlükdə psixikaya informasiya-psixoloji təsirlərin həyata keçirilməsi üçün aşağıdakı vasitələrdəri istifadə edilə bilər [1,12]:

- kütləvi informasiya vasitələri;
- informasiya-təbliğat istiqamətli xüsusi vasitələr;
- qlobal informasiya şəbəkəsi (İnternet);
- internetdə müxtəlif maraqlar üzrə yaradılmış virtual qruplar;
- virtual reallığın yaradılması vasitələri;
- psixosemantik təsir vasitələri;
- akustik və elektromaqnit sahələrin generasiyası vasitələri;
- insanın qərar qəbul etdikdə əsaslandığı informasiya mühitini modifikaisya edən proqram vasitələri.

İnformasiya silahı ideoloji təsirin və təbliğatın güclü vasitəsidir, kütləvi şüurun boğulmasına, kütlələrin altşüuruna müvafiq davranış şablonlarının yeridilməsinə yönəlir ki, onlara manipulyator istədiyi zaman fəallaşdıra bilər. Altşüura və kütləvi psixi şüura belə təsirdə kütləvi kommunikasiya vasitələri xüsusi rol oynayır, çünki sosiumdakı fərdlər kütləvi kommunikasiya vasitələrində hər şeydən əvvəl dünyada baş verən dəyişikliklər haqqında məlumat almaq imkanı görürlər.

İnformasiya-psixoloji təhlükəsizlik problemləri araşdırılarkən İnternetin prinsipial əhəmiyyəti olan bir xüsusiyyəti də nəzərə alınmalıdır. Bu İnternetdə hər hansı idarəedici və ya nəzarətedici orqanın olmaması ilə bağlıdır. İnternetdə yerləşdirilən informasiyaya görə nə müəllif (çox zaman anonim ola bilər), nə də provayder faktiki olaraq məsuliyyət daşımır [1].

## V. İNFORMASİYA-PSİXOLOJİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ SİSTEMİNİN KOMPONENTLƏRİ

İnformasiya-psixoloji təhlükəsizliyin təmin edilməsində maraqlı tərəflər – fərdlər, sosial qruplar və dövlətdir, ilk ikisi vasitəsilə dövlətə ziyan vurulur.

İnformasiya-psixoloji təhlükəsizliyin təmin edilməsi müəyyən edilmiş təhdidlərlə müvafiq mübarizə sisteminin formalaşdırılmasını nəzərdə tutur. Ən ümumi şəkildə bu sistemin üç əsas struktur elementini ayırmaq olar [7]: normativ-hüquqi, təşkilati və texnoloji.

*Normativ-hüquqi komponent* informasiya-psixoloji təhlükəsizlik təhdidlərinə qarşı hüquq normaları sisteminin formalaşması və təkmilləşdirilməsini və onların həyata keçirilməsi mexanizmlərini təmin edir. Bu komponent konstitusiya hüquqlarını və azadlıqlarını, onlara qanuni məhdudiyyətləri, vətəndaşların psixi sağlamlığının və cəmiyyətdə sosial stabilliyin qorunmasını təmin edən fərdi, qrup və kütləvi şüurun təhlükəsizliyinə təhdidlərin müəyyən edilməsi və bu təhlükələrə qarşı əks-tədbirlərin həyata keçirilməsi sahəsində münasibətləri tənzimləyən normativ hüquqi sənədlər toplusu ilə formalaşır.

*Təşkilati komponent* bu sahədə hüquqi normaların həyata keçirilməsinə cəlb edilən dövlət orqanlarının və ictimai təşkilatların funksional strukturunu, bu təşkilatların özləri arasında və bu təşkilatlarla vətəndaşlar arasındakı münasibətləri müəyyən edir. Sistemin təşkilati komponentinin vacib tərkib hissəsi vətəndaş cəmiyyətinin müvafiq strukturları olmalıdır.

*Texnoloji komponent* vətəndaşlar arasında azad və təhlükəsiz informasiya mübadiləsi imkanını və onlara qanunazidd informasiya təsirinin qarşısının alınmasını təmin etməlidir. Texnoloji komponent şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiya-psixoloji təhlükəsizliyinə meydana çıxan təhdidlərin vaxtında aşkarlanmasını və bu təhdidlərə effektiv əks-təsirin təşkilini də təmin etməlidir.

*İctimai rəyin formalaşdırılması* informasiya-psixoloji təhlükəsizliyin təmin edilməsinin əsas obyektlərindən biridir. İctimai rəyin formalaşdırılmasında İnternet, KİV-lər, sosial media və kütləvi kommunikasiya texnologiyalarının digər

növləri daha aparıcı rol oynayır. Bu vasitələr kütlələrə informasiya-psixoloji təsirin unikal mexanizmlərinə çevrilir, bu və ya digər həyati situasiyalarda davranış stereotipləri formalaşdıraraq kütlələri idarə etməyin ən təsirli vasitəsi olur.

Sistemin *kadr təminatı* informasiya-psixoloji təhlükəsizliyin təmin edilməsi üçün cəmiyyətin və dövlətin yetərli kadr potensialının formalaşdırılmasını və inkişafını təmin etməlidir.

## VI. İNFORMASİYA-PSİXOLOJİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNİN ƏSAS PROBLEMLƏRİ

İnformasiya-psixoloji təhlükəsizliyin təmin edilməsinin aşağıdakı bir neçə vacib problemini diqqətə çatdırmaq olar.

Hər şeydən əvvəl, bu sahədə dövlət siyasətinin əsaslarının işlənib hazırlanması vacibdir. İctimai şüur uğrunda mübarizədə ən effektiv yanaşma bu sahədə məsul olan bütün dövlət strukturlarının fəlaiyyətinin koordinasiyasıdır.

Milli mədəniyyət, adət və ənənələr, vətəndaş mövqeyi və vətənpərvərlik hissləri özgə ideologiyanın təsirinə qarşı sosial immunitetin əsasını təşkil edir. Yeni çağırışlar və reallıqlar milli mədəni dəyərlərin qorunması, vətəndaş mövqeyinin və vətənpərvərlik hisslərinin tərbiyəsi sistemlərinin təkmilləşdirilməsini tələb edir.

İnformasiya-psixoloji təsir mexanizmlərinin dərindən öyrənilməsi və onlardan effektiv müdafiə üsullarının işlənilməsi həlli vacib problemlərdəndir. Təxirəsalınmaz praktiki məsələlərdən biri insanların qlobal informasiya dəyişikliklərinə hazırlanmasıdır.

Daha bir mürəkkəb problem fərdi, qrup və kütləvi şüura ən əhəmiyyətli təsir göstərən kütləvi informasiya sistemlərinin təkmilləşdirilməsidir.

İnformasiya-psixoloji təhlükəsizliyin ən əsas faktoru işlərin real vəziyyəti haqqında insanların adekvat məlumatlandırılmasıdır. Sosial hadisələr, qiymətlər, mallar, xidmətlər haqqında əlyetər informasiyanın mövcudluğu insanların məlumatlı olmalarına və nəticədə reklam və təbliğatın zərərli təsirlərindən qorunmasına şərait yaradır.

Daxil olan informasiyanın kəskin artması səbəbindən insanın informasiyanı koqnitiv emalı imkanları məhduddur. İnformasiya artdıqca onu analiz etmək və real vəziyyətdən xəbər verən informasiyanı manipulyativ informasiyadan ayırmaq çətinləşir. Ona görə də koqnitiv proseslərin – diqqət, yaddaş, təfəkkürün inkişafı informasiya-psixoloji təhlükəsizliyin təmin edilməsinin vacib faktorlarındandır [13].

Neqativ informasiyadan tam qorunmaq, o cümlədən ən qabaqcıl texniki üsullarla da mümkün deyil. Lakin informasiya mədəniyyətini, şübhəli, nalayiq, aqressiv informasiyanı qəbul etməməyi tərbiyə etmək olar. O cümlədən, İnternetdə, sosial şəbəkələrdə düzgün davranışı, ünsiyyət etikasını öyrətmək zəruridir.

Nəhayət, baxılan sahədə profilaktika işlərinin həyata keçirilməsi, monitorinqin, ekspertizaların aparılması, zəruri normativ hüquqi və texnoloji təminatın formalaşdırılması üzrə konkret tədbirlərin həyata keçirilməsi üçün kadrların hazırlanması sisteminin formalaşdırılması da ayrıca problemdir.

## NƏTİCƏ

Cəmiyyətin həyatında kütləvi kommunikasiya vasitələrinin rolu artdıqca psixoloji təhlükəsizlik problemləri, o cümlədən informasiya-psixoloji təhlükəsizlik problemləri daha da aktual olur. İnformasiya-psixoloji təhlükəsizliyin təmin edilməsi zəruri təşkilati, hüquqi və texniki təminatın formalaşdırılması ilə yanaşı sürətli texnoloji inkişafdan doğan yeni çağırışlara təsirli cavablar vermək, yeni təhdidləri vaxtında aşkarlamaq və proqnozlaşdırmaq, effektiv praktiki həllər təklif etmək üçün multidisiplinar elmi-tədqiqat işlərinin yerinə yetirilməsini də tələb edir. Bu məqsədlə bu işdə informasiya-psixoloji təhlükəsizliyin təmin edilməsi sahəsində bir sıra aktual elmi-praktiki problemlər müəyyən edilmişdir.

## ƏDƏBİYYAT

1. İ. Y. Ələkbərova. İnformasiya müharibəsi texnologiyaları. Ekspress-informasiya. İnformasiya cəmiyyəti seriyası. Bakı: ”İnformasiya texnologiyaları”, 2012.
2. R.M.Əliquliyev, Y.N.İmamverdiyev, F.F. Yusifov, “Cəmiyyətin informasiya təhlükəsizliyinə dair bəzi konseptual baxışlar,” İnformasiya cəmiyyəti problemləri, №2 (4), s. 3-9, 2011.
3. R. M. Əliquliyev, R.Ş. Mahmudov. İnformasiya asılılığı problemləri və onlarla mübarizə yolları. Ekspress-informasiya. İnformasiya cəmiyyəti seriyası, Bakı, “İnformasiya texnologiyaları”, 2009.
4. R.Ş. Mahmudova, “Cəmiyyətdə informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması məsələləri haqqında,” İnformasiya cəmiyyəti problemləri, №1(7), s. 32-38, 2013.
5. А. Маслоу. Мотивация и личность. СПб.: Евразия, 2001.
6. Г. В. Грачев. “Информационно-психологическая безопасность личности: состояние и возможности психологической защиты.” М.: Изд-во РАГС, 1998.
7. Г .В. Емельянов, В. Е. Лепский, А. А. Стрельцов, “Проблемы обеспечения информационно-психологической безопасности России,” Информационное общество, № 3, с.47-51, 1999.
8. C. J. Lamb. “Review of psychological operations lessons learned from recent operational experience.” National Defense University. 2005.
9. Y. Zheng (eds). “Encyclopedia of cyber behavior.” IGI Global, 2012.
10. M. Shain, I. Arnold, K. GermAnn, “The road to psychological safety: legal, scientific, and social foundations for a Canadian National Standard on psychological safety in the workplace,” Bulletin of Science Technology Society, vol. 32, no. 2, pp. 142-162, 2012.
11. Д. Майерс. Социальная психология. – СПб.: Питер, 2005.
12. В. Б. Вепринцев, А. В. Манойло, А. И. Петренко, Д. Б. Фролов Операции информационно-психологической войны: методы, средства, технологии: Краткий энциклопедический словарь. М.: Горячая линия – Телеком, 2003.
13. Т. Г. Ратинер “Информационно-психологическая безопасность школьников при работе в интернете,” NB: Педагогика и просвещение, № 1, с.73-96, 2014.